“AZƏRBAYCAN DÖVLƏT DƏNİZ AKADEMİYASI”

PUBLİK HÜQUQİ ŞƏXSİ

“TƏSDİQ EDİRƏM”

“Azərbaycan Dövlət Dəniz Akademiyası”

Publik Hüquqi Şəxsin

prorektoru_____ dos. V.B.Sadıqov

“___”_____2025-ci il

KEYFİYYƏTİ İDARƏETMƏ SİSTEMİ

Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin “Azərbaycan Dövlət Dəniz Akademiyası” PHŞ-nin hazırlıq kurslarında təhsil alması qaydaları

ADDA-TL-011

Bakı - 2025

MÜNDƏRİCAT

Giriş.....3

1. Tətbiq sahəsi.....3

2. Daxil olan məlumat.....4

3. Hazırlıq kurslarında tədrisin təşkili-.....5

4. Əcnəbilərin dinləyicilər sırasından xaric edilməsi.....7

5. Prosesin ölçüləri və meyarları.....7

6. Resurslar.....8

GİRİŞ

Bu Qaydalar "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanının 2.2-ci bəndinə, "Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrdə, əcnəbilərn və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında təhsil alması Qaydaları"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 1 may tarixli 125 nömrəli qərarına, "Azərbaycan Dövlət Dəniz Akademiyası" publik hüquqi şəxsinin (bundan sonra Akademiya) Nizamnaməsinə əsasən tədris dilini zəif bilən əcnəbilərin hazırlıq sinif və kursları üzrə Akademiyada təhsil almasına dair ümumi tələbləri müəyyən edir və hazırki sənəd Azərbaycan Dövlət Dəniz Akademiyasının idarəetmə sisteminin (İSO 9001:2015 (b. 7.5) və daxili - "Sənədləşdirilmiş darəolunması" proseduru) tələblərinə müvafiq olaraq işlənib hazırlanmışdır.

1. TƏTBİQ SAHƏSİ

1.1. "Azərbaycan Dövlət Dəniz Akademiyası" PHŞ-nin Keyfiyyəti İdarəetmə Sisteminin bu sənədi "Azərbaycan Dövlət Dəniz Akademiyası" PHŞ-də (bundan sonra - Akademiya) və ya onun bölmələrində (fakültələr, kafedralar, və s.) Antiplagiat Qaydalarının təmin olunmasını müəyyən edir.

1.2. Qaydaların əsas məqsədi Akademiyada elmi işlərin və tədris vəsaitlərinin orijinallığının təmin edilməsi, onların hazırlanmasında elmi plagiat hallarının qarşısının alınması prosedurlarını və məsuliyyət dərəcəsini müəyyən etməkdən ibarətdir.

1.3. Akademiya rektorunun əmri ilə yaradılımış "Plagiat Məsələləri üzrə Komissiya"nın (bundan sonra - Komissiya) rəyi magistr, doktorant və dissertantların müdafiəyə buraxılmasında və digər işlərin nəşr üçün təqdim olunmasında əsas sayılır.

1.4. Akademiyanın rektoru bu sənədləşdirilmiş proseduru və ona dəyişiklikləri təsdiq edir, bu sənədin tələblərinin yerinə yetirilməsi üçün zəruri resurs ayırır.

1.5. Akademiyanın prorektoru bu sənədləşdirilmiş prosedura uyğun işlərin təşkilinə cavabdehdirlər.

1.6. Prosesdə iştirak edən Akademiyanın əməkdaşları bu KİS sənədində göstərilən tələblərin yerinə yetirilməsinə cavabdehdirlər.

1.7. Sənədləşdirilmiş prosedurun tələblərinə uyğunluğun yoxlanılması illik KİS planına uyğun olaraq daxili audit tərəfindən həyata keçirilir.

1.8. Bu sənəddə aşağıdakı simvollar və abreviaturalardan stifadə olunur:

İSO - beynəlxalq standartlaşdırma təşkilatıdır;

BS - beynəlxalq standart;

KİS - keyfiyyət idarəetmə sistemi;

"ADDA" PHŞ – "Azərbaycan Dövlət Dəniz Akademiyası" Publik Hüquqi şəxsi, Akademiya.

1.9 Bu sənəddə aşağıdakı normativ istinadlardan istifadə olunur:

ISO 9000:2015 BS "Keyfiyyət İdarəetmə Sistemləri" Beynəlxalq Standartına uyğundur. Əsaslar və lüğət."

ISO 9001:2015 BS "Keyfiyyəti İdarəetmə sistemi. Tələblər"

ADDA-KP-002 "Sənədləşdirilmiş məlumatların idarə olunması"

2. DAXİL OLAN MƏLUMATLAR ƏCNƏBİLƏRİN AKADEMİYANIN HAZIRLIQ KURSUNA QƏBULU

2.1. Əcnəbilərin Akademiyanın hazırlıq kurslarına qəbulu aşağıdakı əsaslarla həyata keçirilir:

2.1.1 təhsil sahəsində Azərbaycan Respublikası ilə xarici ölkələr arasında bağlanılmış müqavilələrə uyğun müəyyənləşdirilmiş kvota əsasında;

2.1.2. Akademiyanın iştirak etdiyi beynəlxalq proqramlar əsasında;

2.1.3. dövlət tərəfindən müəyyən edilmiş təhsil qrantı proqramı əsasında;

2.1.4. Akademiya ilə xarici ölkələrin təhsil müəssisələri arasında bağlanılmış müqavilələr əsasında;

2.1.5. Akademiyanın hüquqi şəxslərlə birbaşa bağladığı müqavilələr əsasında;

2.1.6. Akademiyanın fiziki şəxslərlə birbaşa bağladığı müqavilələr əsasında;

2.2. Bu Qaydaların 2.1.1-2.1.6-cı yarımbəndlərində qeyd olunan əsaslarla Azərbaycan Respublikasında təhsil almaq üçün müraciət edən əcnəbilər Akademiyaya Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"nin (bundan sonra – TMİS) "Elektron sənəd qəbulu" altsistemi vasitəsilə elektron qaydada müraciət edir.

2.2.1. Müraciətlər TMİS-də qeydiyyata alındıqdan sonra hər bir əcnəbiyə sistemdə şəxsi kabinet açılır.

2.2.2. Əcnəbi TMİS-nin Elektron sənəd qəbulu altsistemində "Elektron ərizə"ni doldurur və bu müraciətə aşağıdakı sənədlərin skan olunmuş surəti əlavə edilir:

2.2.2.1. əvvəlki təhsil pilləsində (səviyyəsində) keçdiyi fənlər və həmin fənlərdən aldıqları qiymətləri göstərən və müvafiq qaydada leqallaşdırılmış(və ya apostil olunmuş) tam orta, orta ixtisas və ya ali təhsil haqqında sənədin (sənədlərin) və onun Azərbaycan dilinə tərcüməsinin notariat qaydada təsdiq edilmiş surəti (surətləri);

2.2.2.2. sağlamlıq, o cümlədən QİÇS, Hepatit B və C viruslarının daşıyıcısı olmaması haqqında arayış (AR-nın istənilən səhiyyə müəssisələrindən);

2.2.2.3. etibarlı sərhədkeçmə sənədi;

2.2.2.4. 3x4 ölçüdə 6 ədəd fotoşəkil;

2.2.2.5. milli pasportun surəti (təsdiqlənmiş tərcüməsi);

2.2.2.6. hazırlıq kursuna qəbul yalnız təqdim olunmuş sənədlər və əcnəbi tələbənin komissiyaya dəvəti ilə aparılıb protokollaşdırılır (bu qaydaların 3.6-cı bəndində göstərilən hallar istisna olmaqla). Həmin protokol hazırlıq kursuna qəbul olunmaq üçün əsas sənəddir

2.2.2.7. Bu Qaydaların 2.2-ci bəndinə əsasən tələb olunan sənədlər müraciət TMİS-də qeydiyyata alındıqdan sonra Akademiyaya təqdim olunmalıdır.

3. HAZIRLIQ KURSLARINDA TƏDRİSİN TƏŞKİLİ

3.1. Əcnəbilərin hazırlıq kurslarında təhsili almaları Azərbaycan Respublikasının qanunvericiliyinə və Akademiyanın rektoru tərəfindən təsdiq olunmuş tədris planları əsasında həyata keçirilir.

3.2. Əcnəbilərin hazırlıq kurslarında tədrisin təşkili müvafiq təhsil planları əsasında həyata keçirilir.

3.3. Tədris "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 7.3-cü maddəsinə uyğun olaraq həyata keçirilir.

3.4. Akademiyada əcnəbilər üçün hazırlıq kursları yalnız ödənişli əsaslarla həyata keçirilir.

3.5. Hazırlıq kurslarına qəbul olan Əcnəbilərlə və ya onların təhsil haqqını ödəyən hüquqi və fiziki şəxslərlə Akademiya arasında bu Qaydalara uyğun müqavilə bağlanılır.

3.6. Təhsil haqqı Akademiya və əcnəbi vətəndaş arasında bağlanılmış müqavilə əsasında müəyyən edilir.

3.7. Kvota əsasında təhsil alan əcnəbilərin təhsil haqqı Azərbaycan Respublikası ilə xarici ölkələr arasında bağlanılmış müqavilələrə uyğun olaraq ödənilir.

3.8. Əcnəbilər qanunvericiliyin tələbləri gözlənilməklə müxtəlif səbəblərdən ölkəyə gələ bilmədikdə hazırlıq kursuna qəbul olmaq istəyən şəxsin nümayəndəsi vasitəsi ilə təhsil müəssəsi arasında onun adından müqavilə baglandıqda müəssisə distant (məsafədən) hazırlıq kursuna şərait yarada bilər.

3.9. Bu Qaydaların 2.1.2-ci, 2.1.4-cü və 2.1.5-ci yarımbəndlərində qeyd olunmuş fəaliyyətlər Akademiya tərəfindən Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyini (təsisçi funksiyalarını digər dövlət qurumu yerinə yetirdikdə, həmçinin həmin orqanı) məlumatlandırmaqla həyata keçirilir.

3.10. Akademiya hazırlıq kurslarında təhsil alan əcnəbilər barədə ildə bir dəfə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə və Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə müəyyən edilmiş forma üzrə hesabat təqdim edir.

3.11. Akademiyada təhsil alan əcnəbilər təhsil müəssisəsinin daxili nizam-intizam qaydalarına riayət etməlidirlər.

3.12. Hazrlıq kursununu bitirən əcnəbi təhsilalanlar keçdiyi fənnlər üzrə yekun qiymətləndirmədən məqbul qiymət aldıqda onlara müvafiq qaydada Akademiyaya qəbul olunmağa əsas verir.

3.13. Əcnəbilərin Akademiyada hazırlıq kursunda təhsil aldıqları dövrdə digər Ali və ya orta ixtisas təhsili müəssisələrinin hazırlıq kurslarına köçürülmələrinə icazə verilmir.

3.14. Hazırlıq kursunda təhsil alan əcnəbilər Akademiyanın Elmi Şurasının qərarı ilə və ya Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin təsdiqlədiyi fənnlər üzrə tədris planına uyğun olaraq təhsil alırlar.

3.15. Azərbaycan Respublikasında təhsil alan əcnəbilər Akademiyadan xaric edildikdə, 3 (üç) iş günü ərzində bu barədə Azərbaycan Respublikasının Elm

və Təhsil Nazirliyinə və Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinə məlumat verməlidir.

3.16. Əcnəbilər hər hansı səbəbdən Akademiyadan xaric olduqda hazırlıq kursuna ödədiyi təhsil haqqı geri qaytarılmır.

3.17. Hazırlıq kursuna qəbul il ərzində 2 dəfə olmaqla müvafiq tədris ilində 1 sentyabr-25 sentyabr və 1 yanvar-25 yanvar tarixlərində aparılır.

3.18. Təhsil müddəti bu qaydaların 3.14 -cü bəndinin tələblərinə uyğun olaraq 6 ay və 9 ay müəyyənləşdirilir.

3.19. Hazırlıq kursunda dərslər müvafiq tədris ilində 01 oktyabr və 01 fevral tarixlərindən başlayır.

4. ƏCNƏBİLƏRİN DİNLƏYİCİLƏR SIRASINDAN XARİC EDİLMƏSİ

4.1. Əcnəbilər aşağıdakı hallarda Akademiyadn xaric edilir:

4.1.1. Öz arzusu ilə;

4.1.2. Akademiyanın daxili nizam-intizam qaydalarını kobud şəkildə pozduqda;

4.1.3. Təhsil haqqını ödəmədikdə;

4.1.4. Səhətinə görə (həkim-məsləhət komissiyasının arayışı əsasında)

5. PROSESİN ÖLÇÜLƏRİ VƏ MEYARLARI

Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin müraciətləri qəbul edilir, təqdim etdikləri sənədlər yoxlanılır və uyğunluq qiymətləndirilir. Qəbul olunmuş şəxslər hazırlıq kurslarına qeydiyyatdan keçirilir və onlara tədris proqramları təqdim olunur. Təlim prosesinin gedişi izlənilir, nəticələr qiymətləndirilir və kursun sonunda müvafiq sertifikatlar verilir.

5.1. **Prosesin Ölçüləri**: Müraciətlərin tamlığı, qəbul edilən tələbələrin sayı, kursun davamiyyət səviyyəsi və tədris nəticələrinin qiymətləndirilməsi ilə ölçülür.

5.2. **Prosesin Meyarları**: Müraciətlərin 100% düzgünlüyü, tələbələrin kurs iştirakının 90%-dən yüksək olması, tədris proqramlarının tam icrası və məzunların sertifikat əldə etmə faizi əsas meyarlardır.

6. RESURSLAR

6.1. Bu sənədləşdirilmiş prosedurun tələblərini yerinə yetirmək üçün Akademiyanın rektoru aşağıdakı zəruri resursları ayırır:

- normativ sənədlər;
- ixtisaslı kadrlar;
- binalar, avadanlıqlar, materiallar;
- maddi resurslar

"Azərbaycan Dövlət Dəniz Akademiyası" PHŞ-nin Elmi Şurasının 27 aprel 2023-cü il tarixli (protokol № 8) qərarı ilə təsdiq edilib.